# OSMAN SARIVƏLLİ VƏ XALQ YARADICILIĞI

İyirminci əsr Azərbaycan ədəbi-mədəni mühitinin yetişdirdiyi ən böyük şəxsiyyətlərdən biri Osman Sarıvəllidir (1905-1990). Zəngin yaradıcı istedadı, yüksək vətəndaşlıq intelleksiyası ilə xalqın mənəvi mədəniyyətinin kutsallıqlarına köklənən ədib ayrı-ayrı şeirlərində, həm də məqalələrində bir əlçatmazlıq sərgiləmişdir. Anadan olmasının yüz iyirmi ili tamam olan O.Sarıvəlli yaradıcılığının ana qaynağını xalqın zəngin şifahi ədəbiyyatından gələnlər təşkil edir. Ümumiyyətlə, onun düşüncəsinin, istək və arzularının, ideallarının, şəxsiyyət olaraq münasibət və davranışlarının əsasında arxaik qatdan üzü bəri gələn təsəvvürlərin qəlibləşmiş modelləri dayanır.

Xalqın zəngin folklor yaddaşı, atalar sözü, məsəl, tapmaca, rəvayət, lətifə, dastan, nağıl, əfsanə, mərasim folkloru, inam və etiqadlar, layla, bayatı, nəğmə və s. O.Sarıvəlli yaradıcılığına əlavə ovqat qatmışdır. Bunların təsiredicilik mexanizmi təkcə məzmun axarı ilə diqqəti cəlb etmir, həm də forma və təhkiyə elementlərinin təsiri və özünəməxsus işləklik axarı ilə diqqət önünə gəlir. Ədəbiyyatın yazılı və şifahi qolu bütün zaman kəsiklərində bir-birilə təmasda və təsirdə olmuş bir mədəni proses olaraq möhtəşəm sənət abidələrinin yaranışına şərait yaratmışdır. Bu təkcə Azərbaycan ədəbiyyatı üçün xarakterik hal deyil, eyni zamanda dünya ədəbiyyatı üçün spesifiklik təşkil etmişdir.

Dünya xalqlarının yaratdığı möhtəşəm sənət abidələri xalq yaradıcılığının zənginliklərindən yüksək intelleksiya ilə bəhrələnməklə əbədiyaşarlıq qazanmışdır. Ə.Firdovsi, N.Gəncəvi, X.Şirvani, S.Şirazi, Ə.Cami, Ş.İ.Xətai, M.Füzuli, V.Şekspir, C.Q.Bayron, A.S.Puşkin, M.Y.Lermontov, M.P.Vaqif, M.V.Vidadi, Q.Zakir, S.Vurğun, M.Şəhriyar və s. kimi böyük sənətkarların yaradıcılığı bunun nümunəsidir. O.Sarıvəlli şeirləri də öz qaynağını qopuzdansazdan gələnlərdən, xalq məişətinin zənginliklərindən almaqla ürəkləri fəth eləmişdir.

Xalq şairi O.Sarıvəlli (Osman Abdulla oğlu Qurbanov) xalqın yaddaşına adını şeirləri ilə yazmışdır. Müxtəlif zaman kəsiklərində yazdığı "Gətir, oğlum, gətir", "Aşıq dostuma", "Bu yerlər", "Qadası", "Sevdiyim", "Dağların", "Məni", "İncimə", "Olarmı", "Var mənim", "Dərdin alım", "Yadında varmı", "Dağlar", "Qara geyinmə", "O kimdir başımda çalır, çağırır", "Mən gedər oldum", "Dağlar mahnısı", "Başına döndüyüm", "Dedim", "Qocanın nağılları", "Daşsız qəbirlər", "Çobanın məktubları", "Şənlik nəğməsi", "Mən səni sevdim ki", "Sən yenə də fikirlisən", "Gəlmədi" və s. şeirləri bütün ahəngi və düşüncə tərzi ilə xalq ruhunun, həyat fəlsəfəsinin, yaşam tərzinin spesifikasını əhatələmək məramı ilə yüksək təsiredicilik funksiyası aşılayır. Məlum olduğu kimi, "folklor yazılı ədəbiyyatın yaranması və inkişafı üçün ən əsas mənbələrdən biridir. Azərbaycan ədəbiyyatı çox qədim zamanlardan başlayaraq şifahi xalq ədəbiyyatı ilə bağlı inkişaf etmişdir.

Azərbaycan ədəbiyyatı tarixində folklor və yazılı ədəbiyyatın bir-birindən istifadəsi, qidalanması qarşılıqlı olmuşdur. Belə ki, folklor yazılı ədəbiyyatın əsas mənbəyi olduğu və bütün inkişaf prosesində ədəbiyyata təsir etdiyi kimi, ədəbiyyatın da öz növbəsində şifahi yaradıcılığa mühüm və səmərəli təsiri görünməkdədir. Bu təsir formada, ifadə vasitələrində, xalqı maraqlandıran, düşündürən bir sıra müasir ideya və motivlərdə özünü göstərmişdir" (1, s. 465-466). O.Sarıvəllinin yaradıcılığı bütün mahiyyətilə folklordan gələn motiv, hadisə, üslub, deyim özünəməxsusluğu və s. üzərində qurulmuşdur. Ayrı-ayrı şeirlərində özünü göstərən bu hal əvvəldən axıra qədər bütün şeirləri boyu özünü müxtəlif formalarda təzahür etdirir. "Hər kim yüz il yaşamasa, günə onun özündədir" deyimi, eləcə də "əllər əyri olsa yollar düzəlməz, düz yollar çəkməyə düz əllər gərək" ifadəsi və s. mahiyyəti və təsəvvür qatı ilə O.Sarıvəlli düşüncəsindən yazıya gələrək xalq arasında bir məsəl səviyyəsində işləklik qazanmışdır. "Qocanın nağılları" silsiləsində olan şeirləri bunun tipik örnəyidir və hadisə, əhvalat baxımından sərgilədiyi məzmunla əsaslı bir tarixi olayı, mənzərəni diqqət önünə gətirir.

Bu qoca, səhnədə oynayır təkcə,
Yaşarır gözlərim o söylədikcə.
Bir ata qəlbinə acıyır insan...
Çəkdi bir təpəyə tutub qolumdan,
Bir qəbir göstərdi, daşları sarı
Əyilmiş qaməti, uçmuş divarı:
-Bu bir şair idi, qələmi xəncər,
Kəskin şeirləri qılıncdan betər,
Atəşə tutardı zəmanəsini,
Zəmanə batırdı onun səsini. (5, s. 12).



Göründüyü kimi, epik təhkiyə və onun nağıl elementləri əsasında təqdimatı, eləcə də hadisə tipikliyi sənətkarın düşüncəsini bir qocanın dedikləri əsasında yazıya gətirmə baxımından mükəmməllik sərgiləyir. "Qocanın nağılları" şeirindən verdiyimiz bu nümunə elə nağıl özünəməxsusluğu və formulları ilə bəzənməklə bədii mətnin poetik vüsətinə əlavə çalar qatır, həyatın mürəkkəbliklə-ri timsalında yaşananların acılarını, gündən, yağışdan dəyişən halını elə həyat hekayəti timsalında təqdimlə təsiredicíliyi daha da artırır və həm də tərbiyəvi mahiyyəti ilə gənc nəslin milli ruhda formalaşmasına yardımçı olur.

O.Sarıvəlli poeziyası məna tutumu və mövzu özünəməxsusluğu ilə ayrı bir spesifikliklə diqqət önünə gəlir. "Bənövşə" şeiri bunun bariz örnəyidir və xalq təsəvvüründə onun mənalandırılması ilə əlaqədar çoxlu əhvalat və hadisələr özünə yer alır. Simvolik xarakteri, söyləmələrdə formalaşdırdığı təsəvvür bir-birindən maraqlı poetik nümunələrin yaranmasına əsas olmuşdur. O.Sarıvəlli də "Bənövşə" şeirində obrazlaşmanın bütün parametrlərindən çıxış etməklə orijinal bir şeir nümunəsini ədəbiyyatımıza təqdim etmişdir. Ədəbiyyatın şifahi və yazılı qolunda bir çoxluqla özünü göstərən bu adda olan poetik nümunələr həm də məna tutumu, janr mükəmməlliyi ilə dillər əzbərinə çevrilmişdir.

Mən çoxdan səninlə tanış olmuşam,
Naxırlar dönəndə çöldən bir axşam,
Həzin çalındıqca qəlbimin simi,
Ağlayıb söylədim sənə dərdimi:

-Ey mənim könlümə vəfalı həmdəm!
Yarım Əsli oldu, mən də bir Kərəm;
Gecə axtarıram, gündüz gəzirəm,
Sən də sevgilimi ara, bənövşə! (5, s. 29).

Bənövşə xalq təsəvvüründə zəriflik, incəlik və kövrəklik simvolu olaraq diqqət önünə gəlir. Sənətkarın çəkdiyi acılar, istək və arzular, sevgi anlamında bütün narahatçılıqların aradan qaldırılması baxımından bənövşədən kömək istəməsi təsadüfi deyildir. Eyni acıları və narahatçılıqları yaşayan bənövşə ilə lirik qəhrəmanın taleyi arasındakı yaxınlıqlar onu daha yaxşı anlayacağı düşüncəsini diqqət önünə gətirir. Onsuz da gərginliklər içrisində çırpınan lirik mən hər yerdən əli üzüləndə son ümid yeri bənövşəni görür və ondan kömək diləməklə, həm də acılarını bölüşür. "Obrazlı təfəkkürün məhsulu olduğundan şeir dilinin ilkin şərti onun obrazlılığıdır və bu onun gerçəkliyi obrazlarla əks etdirmə və qavrama xüsusiyyətlərindən irəli gəlir. Olduqca mühüm üslubi-poetik kateqoriya kimi obrazlılıq sərrast müqayisələr və düzgün assosiyasiyalar əsasında formalaşdırılır, nitq vahidlərinin potensial imkanlarına söykənir" (2, s. 27). O.Sarıvəlli də bütün yaradıcılığı boyu bunu müxtəlif səviyyələrdə prinsipləşdirməklə bir-birindən maraqlı, həm də dillər əzbəri olan poetik nümunələr yaratmışdır.

Çox çağırdın, yetər, ayı, ülkəri,
Bilinmədi aşıqların hünəri.
Bizə dağlar çəkmiş keçən günləri,
Dastanlarda yada salsan sazınla.

Mənə gülməz sazı, sözü duyanlar,
Aşıq, bu yerlərə eləsən güzar,
Osman deyər - gözüm üstə yerin var,
Haçan gəlib qonaq qalsan sazınla. (5, s. 153).

O.Sarıvəlli şeirlərinin ümumi ahəngi sazdan, qopuzdan gələnlərə və onun ecazkarlıqlarına bağlanır. Ruhu və düşüncəsi ilə bu zənginliyə köklənən sənətkar sazın ritmi, səs emosiyası və harmoniyası üzərində köklənməklə bu axarda yazıb-yaratmağa üstünlük vermişdir. Aşıqlara, ustad sənətkarların deyim və üslub özünəməxsusluğuna həssaslıq göstərməklə özü də bu ruhda yaratdıqları ilə xalq arasında yaşarlıq qazanmışdır. "Bəzən Koroğlusan, bəzən Kərəmsən, bəzən də Rüstəmsən - Zalsan sazınla" ifadəsi də məhz aşığın ifaçılıq prosesində teatrallaşma xarakterini, obrazı yaşamasını diqqət önünə gətirir.

Xalq arasında "Osman qağa" adı ilə tanınan sənətkar yaradıcılığı və araşdırmaları ilə ədəbi prosesə gərəkli töhfələr vermişdir. "Qüdrətli şair, ustad sənətkar" (1972, 2011), "Aşıq ürəkli şair, şair ürəkli aşıq Şəmşir" (1973, 2010) kitabları, eləcə də çoxsaylı məqalələri məzmun və mahiyyəti ilə xalq mənəviyyatının zənginliklərini geniş auditoriyaya çatdırmaq məqsədindən qaynaqlanır. Apardığı təhlil yazılarla o adını Azərbaycan folklorşünaslıq tarixinə yazmışdır. Aşıq Ələsgər, Aşıq Şəmşirlə, eləcə də aşıq yaradıcılığının müxtəlif problemləri ilə əlaqədar apardığı araşdırmalar bu gün də özünün aktuallığını saxlayır. Çağdaş folklorşünaslar üçün onun yazıları bir qaynaq funksiyasını yerinə yetirir. XIX əsrin ustad sənətkarlarından olan Aşıq Ələsgərin yaradıcılığını təhlil edən O.Sarıvəlli yazır: "Ələsgər yaradıcılığının xüsusiyyətlərini yalnız onun dövrü, mühiti və qüdrətli istedadı ilə izah etmək özü də birtərəflilik olardı. Çünki Ələsgərin inkişafında şeir ənənəmizin də mühüm rolu olmuşdur. Aşığın çox maraqlı və zəngin yaradıcılığına M.P.Vaqifin, M.V.Vidadinin, Ə.Nəbati kimi şairlərimizin, folklorumuzun, xüsusilə aşıq poeziyamızın xeyirxah təsiri olmuşdur" (7, s. 13-14). Aşıq Ələsgərin parlaq istedadı öz mahiyyətini sırf ənənə üstünə köklənməklə ortaya qoya bilmişdir. Xalq şeiri ənənəsinin ümumi ruhuna köklənən sənətkar qopuzdan, sazdan gələn mükəmməlliyi, sənət axarını yüksək intelleksiya ilə mənimsəməklə həm də yazdıqları ilə ona töhfələrini vermişdir. Aşıq Ələsgərin şeir dili xalqın dili, şeir ruhu xalqın ruhudur. O.Sarıvəlli də dili və ruhu etibarilə eyni sıradadır. Aşıq yaradıcılığı kontekstində təhlillərini bu müstəvidə aparmaqla mahiyyəti aydınlaşdırmağa çalışır.

*(Davamı 9-cu səhifədə)*

# OSMAN SARIVƏLLİ VƏ XALQ YARADICILIĞI

*(Əvvəli 8-ci səhifədə)*

(Əvvəli 8-ci səhifədə)

Xaşq şairinin "Aşıq ürəkli şair, şair ürəkli aşıq Şəmşir" kitabının ikinci nəşrinə başlanğıc yazı yazan prof. B.Qurbanov bir məqamı xüsusi olaraq vurğulayır və deyir ki, "millətin milli mənəvi mədəniyyətini, milli xarakterini, gələcəyə olan inamını bu mənəvi-estetik dəyərlərdən kənar təsəvvür etmək imkansızdır. Əfsuslar olsun ki, bəzən biz bu dəyərləri meydana gətirən, onları mühafizə edən, geniş bir şəkildə təbliğ edən görkəmli simaları, xalq sənətkarlarını layiqincə qiymətləndirmir, onların ardıcıl və titanik fəaliyyətlərini istənilən qədər diqqətə almırıq" (4, s. 5). Azərbaycan xalqının mədəniyyət və ədəbiyyat tarixinə fikir verdikdə bu cür etinasızlıqların özünü göstərdiyinin müxtəlif şəkillərdə şahidi oluruq. Elə xalq şairi O.Sarıvəllinin zəngin yaradıcılığına və fəaliyyətinə münasibətdə də bu özünü göstərir. Xalqın yaddaşında bir mənəviyyat və mədəniyyət abidəsi ucaldaraq heykəlləşən bu tip sənətkarlar elə öz mükafatını da xalqdan alır. Aşıqların repertuarında dillər əzbəri olan şeirləri, geniş kütlənin yaddaşında yaşayan müxtəlif məqamlı poetik örnəkləri, söyləmələri və fikirləri buna nümunədir.

Bir addım yanından ayrı düşərkən,
Mənə dağ çəkirsən hər yazanda sən,
Bağlıdır qəlbinə qəlbim əzəldən,
Könüllər bir olsa etibar olar.

Daş deyil hicranı duymaya insan,
Gəlir xəyalıma xəyalın hər an.
Öz könül dostundan, öz sirdaşından,
Canan vəfa görsə, vəfadar olar. (5, s. 154).

O.Sarıvəlli şeirləri xalqın duyğu və düşüncələrini, istək və arzularını, həyat fəlsəfəsini elə xalqın olanlarından çıxış etməklə reallaşdırır. Bayatı həzinliyi, layla ecazkarlığı, nəğmə ahəngi, eləcə də əfsanə, nağıl, rəvayət, dastan məfkurəsi bütün mahiyyəti ilə arxaik yaddaşa, genetik təsəvvürün polifoniyasına və yaşanan ahəngin ümumi sisteminə dayanır. Xalq şairinin yaradıcılığı da öz nizamını bu mükəmməllik üzərində nizamlamağa həssaslıq göstərir. Onu da deyək ki, "öz üslubunu təyin etmək və ona daim sadiq yaşayıb yaratmaq şair üçün səadətdir" (3, s. 34). O.Sarıvəlli şeirləri ilk nümunələrdən yaradıcılığının ahıllıq dövrünə qədər bütün mərhələlərdə eyni ahəngi, eyni üslubu ehtiva etmək və ona sədaqət göstərmək baxımından nümunəyə çevrilir.

Hüseyn Bozalqanlı, Əsəd Rzayev, Mirzə Bayramov, Əlimərdanlı Nəcəf, Şəmşir Qocayev və s. kimi ustadlarla yaradıcılıq əlaqələri, şeirlərinin el sənətkarlarının repertuarında səslənməsi onun aşıq yaradıcılığına bağlantılarının nəticəsi olaraq ortaya çıxmışdır.

Aşıq, bu gün yaxşı köklə sazını,
Ürək açan mahnılardan de gəlsin!
Şirin dostluq nəğməsidir hər sözün,
Sədaqətdən, etibardan de gəlsin!
Bivəfanın heç danışma sözünü,
Düz peymandan, düz ilqardan, de gəlsin!
(5, s. 154).

Aşığa müraciətlə deyilmiş bu nümunə insani dəyərlər, yüksək ideallar üzərində köklənmənin nəticəsi olaraq aşıq və şair timsalında olanları bir araya gətirir. Çünki ustad sənətkarlar yüz illər boyunca xalqın arzularını, dünyagörüşünü, həyata baxışını, mücadiləsini əsas götürməklə həm də onun təbliğatçısı rolunda çıxış etmişlər. O.Sarıvəllinin də bu ünvanlaması sırf reallığa, həyati dəyərlər üzərində gələcəyin formalaşmasına köklənir.

O.Sarıvəlli yaradıcılığı bütün paradiqması, forma, məzmun, düşüncə axarı ilə xalqın zəngin mədəniyyət təsəvvürlərindən öz qaynağını alır. Onun şeirlərində arxaik qatın çox-çox dərinliklərinə gedib çıxacaq etnik müəyyənliyin qəlibləşdirdiyi əxlaq, davran, düşüncə modelləri bir bütöv olaraq əsas götürülür. Sazın ecazkar ritmi üzərində nizamlanan poetik örnəklər elə yarandığı gündən aşıqların repertuarında özünə yer almaqla dillər əzbərinə çevrilmişdir. Canlı həyat, elat məişətinin zənginlikləri, təbiətin ecazkarlıq mənzərəsi, dağaran köçləri və s. hamısı yüksək sənət imkanları ilə özünün əksini tapır. Bütün bunlar O.Sarıvəlli istedadının nişanəsi olaraq əlçatmazlığı, xalqın zəngin şifahi yaradıcılığından bəhrələnmənin möhtəşəmliyini göstərməklə daha geniş araşdırmalara əsas olur.

*ƏDƏBİYYAT*


1. Əfəndiyev P.Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: Maarif, 1992, 477 s.
2. Hüseynov M. Dil və poeziya. Bakı: Elm, 2008, 434 s.
3. Quliyeva M. Klassik Şərq poetikası. Bakı: Yazıçı, 1991, 128 s.
4. Qurbanov B. Ön söz əvəzi. O.Sarıvəlli"Aşıq ürəkli şair, şair ürəkli aşıq Şəmşir". Bakı: Avropa, 2010, s. 5-10.
5. Sarıvəlli O. Seçilmiş əsərləri. Üç cilddə, II c. Bakı: Azərnəşr, 1974, 252 s.
6. O.Sarıvəlli. Aşıq ürəkli şair, şair ürəkli aşıq Şəmşir. Bakı: Avropa, 2010, 112 s.
7. Sarıvəlli O. Qüdrətli şair, ustad sənətkar. Bakı: Avropa, 2011, 128 s.


***Şəbnəm HAQVERDİYEVA,***
***AMEA Folklor İnstitutunun əməkdaşı***